# İdxal-ixrac əməliyyatları zamanı tələb olunan sənədlərin, müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflərin TƏQDİMATI

***"Azərbaycanda Kiçik Sahibkarlığın İnkişafına Dəstək" layihəsi***

Qubad İbadoğlu, layihə eksperti

# SAHIBKARLIĞIN INKIŞAFI ILƏ BAĞLI ƏLAVƏ TƏDBIRLƏR HAQQINDA FƏRMAN

Fərmanda qeyd olunur ki, ölkədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması məqsədi ilə Nazirlər Kabinetinə qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla iki ay müddətində Dövlət Gömrük Komitəsi, İqtisadiyyat və Sənaye Nazirliyi, Nəqliyyat Nazirliyi, Vergilər Nazirliyi, Ədliyyə Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə idxal-ixrac əməliyyatları zamanı tələb olunan sənədlərin, müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidirlər.

# BİZNESİN APARILMASI İNDEKSİ (Doing Business)

| İstiqamət | DB - 2014 | DB - 2013 | Reytinqin dəyişməsi |
|---|---|---|---|
| Xarici ticarət | 168 | 169 | 1 |

# **XARİCİ TİCARƏT** *(müqayisəli)*

| İndikator | Azərbaycan | Avropa və Mərkəzi Asiya | İƏİT |
|---|---|---|---|
| İxrac üçün sənədlər (miqdarı) | 9 | 7 | 4 |
| İxrac üçün  sərf olunan vaxt (günlə) | 28 | 25 | 11 |
| İxracın dəyəri (1 konteynerə görə US $-la) | 3 540 | 2 109 | 1 070 |
| İdxal üçün sənədlər (miqdarı) | 11 | 8 | 4 |
| İdxal üçün sərf olunan vaxt (günlə) | 25 | 26 | 10 |
| İdxalın dəyəru ( 1 konteynerə görə US $-la) | 3 560 | 2 339 | 1 090 |

# İDXALDA MÖVCUD DURUM

- İdxalçılar idxal icazəsi almaq üçün yüksək xidmət haqqı ödəməyə məcburdurlar;
- İdxal prosedurları və ödənişlər barəsində informasiyanı elektron şəkildə əldə etmək çətindir, bəzi hallarda isə mümkün deyil;
- İdxal icazəsi vaxtının süni şəkildə uzadılması, tələb olunan sənədlərin qanunvericlikdə konkret əks etdirilməməsi kimi inzibati baryerlər idxalçıları bəzən qeyri-rəsmi ödənişlər etmək məcburiyyətində qoyur.
- Sahibkarlar qanunvericilikdəki informasiya öhdəlikləri barəsində az məlumatlıdırlar.
- Gömrük prosedurları son zamanlar sadələşsə, sənədlərin sayı azalsa da, bu prosedurlara sərf olunan vaxt beynəlxalq təcrübəyə uyğun deyil;
- Bank əməliyyatları qısa müddətdə, inzibati baryersiz həyata keçirilir. Lakin daşınma şərtləri ilə pul köçürmə formaları arasında uyğunsuzluq müşahidə olunur. Banklar hesab edirlər ki, bu məsələyə nəzarət etməyə məsul deyillər.

# İDXALDA MÖVCUD DURUM
## *(Güzgü statistikası)*

| Almaniya | Ticarət tərəfdaşının məlumatı əsasında ixrac, US $ | Azərbaycanın rəsmi məlumatları əsasında idxal, US $ | Kənarlaşma, US $ | Kənarlaşmaının cəmi idxalda payı, % |
|---|---|---|---|---|
| **2010** | 974945 | 607068 | 367877 | 60.6% |
| **2011** | 1182375 | 845291 | 337084 | 39.9% |
| **2012** | 1038126 | 779971 | 258155 | 33.1% |

# İXRACDA MÖVCUD DURUM

- **İxrac prosedurlarına şirkətlər tərfindən sərf olunan vaxt, rəsmi rüsum və xidmət tarifləri xərcləri Aİ-yə ixrac olunan məhsulun dəyərinin təxminən 2.7%-ni təşkil edir** Beynəlxalq təcrübəyə görə şirkətlərin ixrac xərcləri məhsulun dəyərinin 1%-i civarında olur.

- **Uyğunluq və Mənşə sertifikatlarının verilməsi zamanı aparılan laborator analizlərə görə ödənilən xidmət haqlarının məhsulun miqdarına (müvafiq olaraq istehsalın və ixracın həcminə) görə faiz nisbətində müəyyənləşdirilir ki, bu da beynəlxalq tələblərə cavab vermir.** Dünya Ticarət Təşkilatının tələblərində bu tip xidmət haqları tariflərinin müəyyənləşdirilməsi zamanı istehsalın və ixracın məbləğinin deyil, görüləcək işin həcminin əsas götürülməsi tövsiyə olunur. Eyni zamanda, Gigiyenik və Keyfiyyət sertifikatların verilməsi tarifləri qanuna zidd olaraq daxili qərarla tənzimlənir.

- **Azərbaycandan AB ölkələrinə imtiyazlı şərtlərlə məhsul ixracının ilbəil azalması.** İqtisadiyyat və Sənaye Nazirliyinin rəsmi məlumatına görə, HACCP-nin tələblərinə cavab verən 28 müəssisəyə məhsullarının AB-yə ixracı üçün təsdiqedici kod nömrələri verilib. Azərbaycan 2009-cu ilin yanvarında AB-yə imtiyazlı ixraca imkan verən GSP+ rejiminə qoşulub.

- **Azərbaycan Respublikasında istehsala tətbiq olunan standartların əsasən keçmiş SSRİ məkanındakı bəzi respublikalarda keçərli olması, beynəlxalq standartlardan, hətta çox vaxt Rusiada qəbul olunmuş QOST-lardan geri qalması.** Məsələn, Səhiyyə Nazirliyinin qəbul etdiyi “Qida məhsullarının təhlükəsizliyinə və qida dəyərliliyinə gigiyenik tələblər (Sanitariya-epidemoloji qaydalar və normativlər)” Rusiyanın 2001-ci ildə qəbul etdiyi normativlərin tərcümə edilib təsdiq olunmuş variantıdır. Sənədə yeganə əlavə 2007-ci ildə Azərbaycandan AB ölkələrinə ixrac olunan fındıqda aflatoksinin miqdarının yüksək olmasının aşkarlanması səbəbindən məhsulların geri qaytarılmasından sonra edilib. Bu, bir vərəqlik, “Avropa İttifaqı ölkələrinə ixrac edilən və oradan idxal olunan bəzi məhsullarda aflatoksinin yol verilən miqdarı” adlı cədvəldir.

# İXRACDA MÖVCUD DURUM

- **Qida məhsulları istehsal edən yerli müəssisələrin əksəriyyətində texniki şərtlərə, keyfiyyəti idarəetmə sisteminə əməl edilməməsi, lazımi analizləri aparmağa imkan verən laboratoriyaları əldə etmək üçün vəsaitin olmaması.**
- **Beynəlxalq akkreditasiyadan keçmiş, analizlərinin nəticələrinə xarici partnyorların inamı olan müstəqil laboratoriyaların yoxluğu və mütəxəssis çatışmazlığı.**
- **Sertifikatların verilməsinə və keyfiyyətə nəzarət olunmasına səlahiyyəti olan dövlət qurumlarının çoxluğu.** 5 sertifikatın və 1 təsdiqedici kodun verilməsi ilə 4 dövlət qurumu məşğul olur. Hətta təsdiqedici kodun, Mənşə və Keyfiyyət sertifikatlarının verilməsinə məsul olan İqtisadiyyat və Sənaye Nazirliyinə qısa müddətdə ayrı-ayrılıqda 3 dəfə müraciət etmək tələb olunur.
- **Qida məhsullarının istehsalı ilə məşğul olan biznesə müasir laboratoriyaları almaq üçün bankların, kredit təşkilatlarının kredit xəttinin açılmasında maraqlı olmaması.** Çünki bu halda laboratoriyaların qurulması qida təhlükəzliyini təmin etməklə yanaşı şirkətin faktiki xərclərini artırsa da, istehsal gücü artmadığından vəsaitin qaytarılmasına təminat az olur.
- **Biznesin müəssisələrdə avadanlıqları yeniləməyə və laboratoriya almağa maraqlı olmaması.** Bu, dövlət strukturları tərəfindən keyfiyyətə ciddi nəzarətin olmamasından, eyni zamanda, mövcud qanunvericlik aktlarının biznesin cavabdehlik daşımamasına imkan yaratmaslndan və bu tip xərclərin məhsulun maya dəyərini artırmasından qaynaqlanır.

# İDXALLA BAĞLI TÖVSİYƏLƏR

- Müəssisələr seçilərkən onların məhsullarının beynəlxalq sertifikatlaşdırılmış laboratoriyalarda yoxlanılıb-yoxlanılmamasını nəzər alınsın. Bu halda idxalatçının istehsalçıdan keyfiyyət və mənşə sertifikatlarını alması kifayət edir. Məsələn, Latviya Baytarlıq Xidməti laboratoriyalarını və standartlarını qəbul etdiyi ölkələrin siyahısını tutur. Əgər Türkiyənin yem istehsalçısı öz ölkəsində qeydiyyata düşmüş məhsulunu Latviyada satmaq istəyirsə və Latviya Türkiyənin standartlarını qəbul edibsə, bu zaman nümunə testdən keçirilmir, məhsulun idxalına birbaşa icazə verilir.
- Biznes asossiasiyalarının yaradılması, sahibkarlar arasında maarifləndirmə aparılması üçün stimullaşdırıcı tədbirlər planı hazırlasın.
- Banklara maliyyə əməliyyatlarında (ödənişlərdə) akkreditiv üsuluna üstünlük verməsi tövsiyə olunur.

# İXRACLA BAĞLI TÖVSİYƏLƏR

- Qida məhsullarının Avropa İttifaqına ixracı zamanı Mənşə, Keyfiyyət sertifikatlarının və Təsdiqedici kod nömrəsinin verilməsi üçün İqtisadiyyat və Sənaye Nazirliyində Vahid Pəncərənin yaradılması
- Mənşə və Uygunluq sertifikatlarının verilməsinin xidmət haqqı tariflərinə yenidən baxılması, tariflərin təyin olunmasına  yanaşma prinsipinin dəyişdirilməsi. Eyni zamanda, Gigiyenik və Keyfiyyət sertifikatlarının  və Təsdiqedici Kodun verilməsi zamanı tətbiq olunan tariflərin daxili qərarla deyil, Tarif (Qiymət) Şurası tərəfindən tənzimlənməsi.
- Milli standartların təkmilləşdirilməsi
- Standartlara, sanitariya-gigiyena norma və normativlərinə əlçatanlığın təmin olunması
- Keyfiyyətə nəzarət analizlərinin aparılmasına imkan verən müstəqil laboratoriyaların yaradılması, mütəxəssislərə təlim və treninqlərin keçilməsi
- Təsdiqedici kod nömrəsinin ildə 2 dəfə, 6 aydan bir verilməsi.